**Cen Sinsero**

# SƏN PUL QAZANMAQDA ƏJDAHASAN

## VARLANMAQ YOLUNDA USTALAŞMAQ

Tərcüməçi:
Aqil Hacı

qanun nəşriyyatı

Jen Sincero

# YOU ARE A BADASS AT MAKING MONEY

## MASTER THE MINDSET OF WEALTH

40 yaşından sonra həyatını kökündən dəyişən və inanılmaz uğur qazanan yazıçı və biznes treneri Cen Sinseronun "Sən pul qazanmaqda əjdahasan" kitabı dünyanın 20-dən çox dilinə tərcümə edilib. Bu kitabda müəllif düşüncə tərzinin, vərdişlərin köməyilə həyatı yaxşılığa doğru dəyişməyin mümkünlüyündən bəhs edir və oxucunu güclü motivasiyaya kökləyir.

Bu kitabın sayəsində siz: var-dövlətə sağlam münasibət bəsləmək və buna nail olmaq; normal gəlir əldə etməyi əngəlləyən gizli inamları müəyyən etmək; pulu enerji axını kimi qəbul etməyə və onu idarə etməyin sirlərini öyrənməyə başlamaq; emosiyaları qazanc vasitələrindən birinə çevirmək; kainat üçün aydın sorğular hazırlamaq vərdişinə yiyələnmək; ürəyinizin çağırışına qulaq asmağı və bunun pul axını üçün əsas yaratmağı öyrənmək; qətiyyətli hərəkətə keçmək; pulun əriməməsi, çoxalması üçün nə edəcəyinizi anlamaq; gəlirinizi bir neçə dəfə artırmağa və hərəkətə gətirməyə şərait yaradan "inam sıçrayışı" etmək imkanı qazanacaqsınız.

Müdrik yönləndirməsi, etibarlı dostluğu
və inadkarlığı sayəsində
məni qarajdan çıxarıb yeni dünyanı göstərən
**Gina de Viiyə**
həsr edilir.

# İÇİNDƏKİLƏR

**Giriş** .................................................................... 9
I HİSSƏ. Müavinət ....................................................... 15
II HİSSƏ. Nə üçün siz magistral yolda deyilsiniz ................ 27
II A HİSSƏ. Universal intellekt haqda kiçik, lakin güclü hissə ................................................ 45
III HİSSƏ. Mənə pul göstər .............................................. 53
IV HİSSƏ. Sürətlənmək üçün ən yaxşı praktikalar .......... 63
V HİSSƏ. Qəlbinizin fəryadı ............................................ 77
VI HİSSƏ. Sizin mental pul kəsən maşınınız .................... 91
VII HİSSƏ. İnam və minnətdarlıq qızıldır ......................... 113
VIII HİSSƏ. Qətiyyətli hərəkət: çempionların seçimi ....... 125
IX HİSSƏ. Yuxarı hərəkət .................................................. 139
X HİSSƏ. İndi isə mənim mühasibimdən bir neçə söz .............................................. 153
XI HİSSƏ. Daxili zənginliyiniz ........................................... 171
XII HİSSƏ. Məqsədyönlülük ................................................ 183
XIII HİSSƏ. Dəyişiklik yoldaşlıq sevir ................................ 195
**Minnətdarlıq** ...................................................... 200

# GİRİŞ

Əgər siz daha çox pul qazanmağa hazırsınızsa, bacararsınız. Sizin nə qədər cəhd etməyiniz, nə qədər çarəsiz vəziyyətdə olmağınız və ya avtobus kartınızda pul olmadığını aşkar edib təəccüblənməyiniz məni maraqlandırmır. Və indiki vəziyyətinizdə sizin üçün absurd səslənsə belə, siz çoxlu pul qazana bilərsiniz. Hətta lazımlı-lazımsız qarşınıza çıxan hər şeyi alaraq əlinizə düşən pulu dərhal göyə sovurmaqdan zövq alan biri olsanız belə.

Və həmçinin qeyd etmək istəyirəm ki, pulu necə qazanacağınızı hələ də aydınlaşdıra bilməməyinizdə pis bir şey yoxdur. Pul ən çox müzakirə olunan məsələdir – pulu sevirik, pula nifrət edirik, pul haqda düşünmək bütün beynimizi zəbt edir, pula etinasızlıq edirik. Pula sahib olmaq istəyi o qədər güclü və eyni zamanda utancverici olur ki, biz pul haqda çox zaman pıçıltı ilə danışırıq. Adı iri hərflərlə aydın şəkildə yazılmış bu kitabı insanların çox olduğu ictimai yerdə oxumağa cürət edərdinizmi? Bu mənə növbəti "qəliz məsələ" olan seksə uşaqlıqdan necə münasibət göstərməyə öyrədildiyimizi xatırladır. Sekslə məşğul olmaq və pul qazanmağa gəlincə, nədənsə sizin bunları məharətlə bacarmağınız tələb olunur, lakin heç kim bunun necə edildiyini öyrətmir və ədəbsiz, tərbiyəsiz və qapalı mövzu olduğu üçün bu haqda susmağınız daha məqsədəuyğun hesab edilir. Həm pul, həm də seks inanılmaz həzz yaşada, yeni həyat doğura və aqressiyaya səbəb ola bilər. Onlara əlimiz çatmadığında utanırıq, lakin onları istədiyimizi etiraf etməyə daha çox utanırıq və əldə etmək üçün inanılmaz işlər görə bilərik.

Yaxşı xəbər isə ondan ibarətdir ki, çox adam kimi sizin də pul ilə münasibətiniz mürəkkəbdirsə, onun öhdəsindən gəlmək, vəziyyəti dəyişmək və günlərin birində istədiyiniz həyata nail olmaq imkanınız var. Və bu dəyişikliyi elə indidən etməyə başlaya bilərsiniz. Bunun üçün lazım olan yeganə şey əvvəlki düşüncə tərzindən azad olmaq, diqqətinizi nəyin üzərində cəmləşdirdiyinizə dair fərqli seçimlər etmək, pul haqda biliyinizi artırmaq və bütün gücünüzlə irəli hərəkət etməkdir. Bunları da etməkdə sizə bu kitab kömək edəcək.

Şəxsən mən özüm maliyyə vəziyyətimi o qədər kəskin və tez dəyişdim ki, məni yaxşı tanıyan hər kəs nə baş verdiyi haqda baş sındırır. Və inanın, əgər mənim kimi iş bacarmaz biri bunu edə bilibsə, hansı vəziyyətdə olmağınızdan asılı olmayaraq, siz də edə bilərsiniz. Çünki qırx yaşıma kimi mənim pul haqda biliklərim sıfıra bərabər idi. Qırx yaşıma kimi! Bu yaşda insanların çoxu ev, avtomobil və övladlarının təhsil haqqı kimi bir çox şeylərə artıq malik olurlar və "Dou Johns"un necə işlədiyini bilirlər. Mən isə qırx yaşımda daim boş olan bank hesabına, stressdən qaşlarımın arasında yaranmış qırışdan və kolleksiya agentliyində işləyən Şeyla ilə mehriban dostluq münasibətindən başqa heç nəyə malik deyildim.

Həyatımın çox hissəsini cüzi gəlir gətirən freelance[1] yazıçı işləmişdim. Riyaziyyatı yaxşı bilsəydim, yazıçılığa sərf etdiyim zamanın qarşılığında qazandığım pulun heçə bərabər olduğunu anlaya bilərdim. Lakin mən bunun əvəzində real faktları inkar edir, daha çox çalışır, daha çox şikayət edir və nə zamansa, hansısa bir möcüzə nəticəsində maliyyə vəziyyətimin düzələcəyinə və həyatımın dəyişəcəyinə ümid edirdim. Maliyyə vəziyyətimin yaxşılaşdırılmasına dair "mükəmməl" planım qərarsızlıqdan və pulun, əslində, şeytani amil olmasına inanmaqdan ibarət idi. Yazıçı olduğumu və bütün günü otaqda tək-tənha oturub, sadəcə, yazı yazmaqla vaxt keçirmək istəmədiyimi bilirdim, lakin nə etməli olduğumu bilmirdim. Və qarşıma çıxan istənilən bir məşğuliyyəti seçib, sadəcə, nə isə bir işlə məşğul olmaq əvəzinə, küncə qısılıb dırnaqlarımı dişləyərək nə etmək lazım olduğunu düşünürdüm. Bu vəziyyət illər boyu davam et-

[1] Evində fərdi, sərbəst qaydada işləyən mütəxəssis (tərc. qeydi)